**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

**“Təsdiq edirəm”**
**Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor vəzifəsini icra edən:**
**__________dos.Z.İ.Məmmədov**
**“___” ____________ 2025-ci il**

## Fənn sillabusu

**İxtisas**: **060702** – Aqronomluq
İxtisaslaşmanın adı: Meyvəçilik
**Fakültə**: Aqrar və mühəndislik
**Kafedra**: Aqrar elmlər
**I. Fənn haqqında məlumat:**
**Fənnin adı:** “Meyvəçilik-1” (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 12.04.2018-ci il. F-249 saylı əmri ilə qrif verilmişdir.
**Kodu:MİF-B04.1**
**Tədris ili:** II (2024\2025)
**Semestr:** III
**Tədris yükü:** Cəmi: 150 saat. Auditoriyadan kənar 120 saat. Auditoriya saatı 30 saat (15 saat müh., 15 saat lab.)
**Tədris forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit**: 5
**Auditoriya N:** 109
**Saat:** $15^{15}$

1. **Müəllim haqqında məlumat:**

**Adı, soyadı, dərəcəsi**: Balayar Şahbazov, a.e.ü.f.d., dosent
**Kafedranın ünvanı:** Lənkəran ş., Fizuli küç.,170-a, 1 saylı tədris korpusu
**Məsləhət günləri və saatı:** V gün $14^{00}$
**E-mail ünvanı**: balayar.shahbazov 58 @mail.ru
**Kafedranın ünvanı:**Lənkəran ş., Füzuli küç.,170-a, 1 saylı tədris korpusu
**III. Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**


1. *Həsənov Z.M., Əliyev C.M. Meyvəçilik (dərslik), Bakı, MBM nəşriyyatı, 2011, 520 s.*
2. *Quliyev F.A., Abdullayev F.M. Kivi bitkisinin becərilməsinn texnologiyası, Bakı, “Müəllim”, 2009, 60 s.*
3. *Əliyev C.M. Meyvəçilik, Bakı, 1974.*
4. *Həsənov Z.M. Subtropik meyvə bitkiləri (I-II hissə), K., 1984; 1983.*
5. *Rəcəbli Ə.C. Azərbaycanın meyvə bitkiləri. Bakı, 1966*
6. *Sadıqov Ə.N., Sadıqova N.M. Azərbaycanda alma bitkisi. Bakı, 2005*
7. *Витовский В.Л. Плодовые растения мира. Санк-Петербург-Москва-Краснодар: Лань, 2003, 591 с.*
8. *Бейкер Х. Плодовые культуры: Пер. с англ./Предисл. Ф.А.Волкова. М.: Мир, 1986, 198 с.*
9. *Колесников В.А. и др. Плодоводство. М., 1979*
10. İnternet resursları (www.agro.gov.az, www.eco.gov.az və s.)


**IV.Prerekvizitlər:**Fənnin tədrisi üçün öncədən “Meyvəçilik-1” fənninin tədrisi vacibdir.
**V.Korekvizitlər:**Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin tədris olunmasına zərurət yoxdur.
**VI. Fənnin təsviri və məqsədi:** ***Hazırda əhalinin ərzaq təminatının ödənilməsində problemlərin mövcud olması və onun gələcəkdə daha çox artacağı etimalı nəzərə alındığına görə, aqrar sahənin inkişaf dərəcəsi hər bir ölkənin iqtisadiyyatının və əhalinin yaşayış səviyyəsinin əsas göstəricisi***

***sayılır və bəzi halda o, ən qabaqcıl cəbhə adlandırılaraq, müdafiyə sistemi ilə eyni əhəmiyyətli sahə kimi dəyərləndirilərək, dövlət siyasətinə vacib prioriteti hesab edilir.***

***Aqrar istehsalın artırılması elmi texniki nailiyyətlərin və mütərəqqi texnologiyaların tətbiqi ilə yanaşı, yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasından keçir. Bu isə ümumən kənd təsərrüfatı elmlərinin ana xəttini təşkil edən əkinçiliyin inkişafı ilə əlaqədardır.***

***Müasir meyvəçilik elmi təbiət elmlərinin əsas qanunauyğunluqlarını nəzərə almaqla, müasir intensiv bağlarının tələblərinə uyğun bağların salınmasını tələb edir.***

***Meyvəçilik fənni aqrar təhsil müəssisələrində aqronomluq istiqamətli ixtisaslar üzrə mütəxəssis hazırlığında əsas fənn kimi tədris olunur. Fənnin tərkibinə aşağıdakı əsas bölmələr daxildir:***

1. ***Meyvəçiliyin təsərrüfatda əhəmiyyəti, meyvəçiliyin tarixi və inkişaf yolları;***
2. ***Meyvəçiliyin bioloji əsasları, meyvə bitkilərinin mənşə mərkəzləri və onların bioloji formaları;***
3. ***Meyvəçiliyin aqrotexnikası, meyvə bitkilərinin əkin materialının istehsalı texnologiyası, meyvə-giləmeyvə bitkilərinin çoxaldılmasının bioloji əsasları;***
4. ***Meyvə istehsalı texnologiyası, meyvə bağının layihələndirilməsi və təşkili, meyvə bağına qulluq;***
5. ***Xüsusi meyvəçilik, tumlu meyvə bitkiləri, çəyirdəkli, qərzəkli, subtropik və sitrus meyvə bitkilərinin botaniki təsviri və bioloji xüsusiyyətləri;***
6. ***İntensiv meyvə bağlarının salınmasının əsas xüsusiyyətləri və onlarm təşkili qaydaları.***

***Bu bölmələrdə torpağın münbitliyinin artırılması və becərilən meyvə-giləmeyvə bitkilərinin məhsuldarlığmm yüksəldilməsi ilə torpaqdan səmərəli istifadə qaydaları öyrənildiyinə görə, meyvəçilik fənninin nəzəri əsası kimi təqdim olunur.***

***Meyvəçilik fənni-aqronomluq, meyvə tərəvəzçilik, bitki mühafizəsi, aqrokimya və torpaqşünaslıq ixtisaslı qruplara əsas fənn, aqrar iqtisadiyyat və mühəndislik üzrə yeni ixtisas qruplarında isə seçmə fənn kimi tədris olunur. Fənnin əsas obyekti "meyvə-giləmeyvə" bitkiləridir.***

***Meyvəçiliyin nəzəri və metodoloji əsasını fundamental tətbiqi elmlər: biologiya, fizika və kimya təşkil edir. Meyvəçilik həmçinin bitkiçilik, toraqşünaslıq, aqrokimya, botanika, bitki fiziologiyası, mikrobiologiya, meliorasiya, meterologiya, seleksiya və toxumçuluq, fitopotologiya, entomologiya və s. kimi digər aqronomiya elmləri ilə sıx əlaqədardır.***

***Fənnin tədrisində məqsəd: - meyvə-giləmeyvə bitkilərindən səmərəli istifadə məqsədilə müəyyən edilmiş və elmi əsaslandırılmış aqrotexnologiyaların öyrənilməsi və müasir metodlarla yeni meyvə-giləmeyvə bağlarının salınması, onlara qulluq qaydalarının sistemli qurulmasında tələbəbrin təfəkkürünü formalaşdırmaqdan ibarətdir.***

***Tələbə fənni tam öyrənməklə: - meyvə bitkilərinin morfoloji təsvirini; meyvə-giləmeyvə bitkilərinin böyümə və inkişafını; onların böyümə və inkişafında xariçi mühit şəraitinin rolunu; meyvə bitkilərinin çoxaldılmasının bioloji əsaslarını meyvə istehsalı texnologiyasını; bağın layihələndirilməsi və təşkili; məhsuldar bağlara düzgün qulluq işlərini bacarmaq imkanı əldə edlir.***

**VII. Davamiyyətə verilən tələblər:** Davamiyyətə verilən tələblər: Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir. İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Hər sual 10 bala qədər qiymətləndirilə bilər. Qiymət meyarları aşağıdakılardır:

- 10 bal – tələbə keçirilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal – tələbə keçirilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir;
- 8 bal – tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;

- 7 bal – tələbə keçirilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal – tələbənin cavabı əsasən düzgündür;
- 5 bal – tələbənin cavabında çatışmazlıqlar var;
- 4 bal – tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhflərə yol verir;
- 3 bal – tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal – tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal – tələbənin suala cavabı yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən aşağı olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

***Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında):***

| Bal | Qiymət | |
|---|---|---|
| | Sözlə | Hərflə |
| 91 - 100 bal | əla | A |
| 81 - 90 bal | çox yaxşı | B |
| 71 - 80 bal | yaxşı | C |
| 61 - 70 bal | kafi | D |
| 51 - 60 bal | qənaətbəxş | E |
| 51 – baldan aşağı | qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** Tələbə universitetin daxili nizam-intizam qaydalarını pozduqda Əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**Təqvim planı: Mühazirə 15 saat, laboratoriya 15 saat. Cəmi 30 saat**

| № | Mühazirə mövzuları | Müh | Tarix |
|---|---|---|---|
| 1 | **Mövzu-1:** Giriş. Meyvəçilik fənninin predmeti, İnkişaf tarixi,şəraiti vəvəzifələri və xalq təsərrüfatı əhəmiyyəti<br>Plan:<br>1. Meyvəçilik fənninin predmeti və vəzifələri.<br>2. Meyvəçilik fənninin bölmələri.<br>3. Meyvəçiliyin xalq təsərrüfatında əhəmiyyəti.<br>4.Meyvəçilikdə intensivləşmənin yolları<br>***Ədəbiyyat və mənbə:*** [1, 3, 4, 7, 8] | 2 | |
| 2 | **Mövzu-2:** Təbii böyümə xarakterinə görə meyvə-giləmeyvı bitkilərinin qruplaşdırılması<br>Plan:<br>1. Meyvə bitkilərinin təbii böyümə xarakterinə görə qruplaşdırılması<br>2. Meyvə-giləmeyvə bitkilərinin orqanları<br>3. Kök sisteminin morfoloji və bioloji xüsusiyyətləri<br>***Ədəbiyyat və mənbə:*** [1, 6, 8] | 2 | |
| 3 | **Mövzu-3:** Meyvə-giləmeyvə bitkilərinin kök və yerüstü sisteminin xüsusiyyətləri<br>Plan:<br>1. Çoxaldılma üsullarından asılı olaraq kök sisteminin xüsusiyyətləri<br>2. Köklərin torpaqda yerləşməsi istiqaməti<br>3. Sorucu köklərin anatomik quruluşu<br>4. Meyvə-giləmeyvə bitkilərinin yerüstü hissələri<br>5. Meyvə bitkilərində zoğ və zoğun tipləri<br>6. Meyvə bitkilərində göz və budaqların tipləri<br>***Ədəbiyyat və mənbə:*** [1, 3, 6, 9] | 2 | |
| 4 | **Mövzu-4:** Meyvə-giləmeyvə bitkilərində gövdə, budaq, zoğun anatomik quruluşu, yarpaq və tumurcuqların rolu<br>Plan:<br>1. Gövdənin anatomik quruluşu<br>2. Meyvə budaqcıqlarının quruluşu | 2 | |

| | | | |
|---|---|---|---|
| | 3. Tumlu və çəyirdəkli meyvə bitkilərində meyvə budaqcıqlarının tipləri<br>4. Meyvə-giləmeyvə bitkilərində yarpaq və onun formaları<br>5. Meyvə bitkilərində vegetativ və generativ tumurcuqlar, onların bitki üzərində yerləşməsi<br>***Ədəbiyyat və mənbə:*** [1, 3, 6, 2] | | |
| 5 | **Mövzu-5:** Meyvə-giləmeyvə bitkilərində çiçək, meyvə və toxum<br>Plan:<br>1. Çiçəyin quruluşu<br>2. Çiçək topasının tipləri<br>3. Meyvə və onun formaları<br>4. Toxum və onun quruluşu<br>***Ədəbiyyat və mənbə:*** [1, 2, 6, 7] | 2 | |
| 6 | **Mövzu-6:** Meyvə-giləmeyvə bitkilərinin böyümə və inkişafının qanunauyğunluğu<br>Plan:<br>1. Meyvə bitkilərində filogenetik və ontogenetik inkişaf<br>2. Meyvə bitkilərində böyümə ilə inkişafın əlaqəsi<br>3. Yerüstü sistemin böyüməsi və inkişafı<br>4. Meyvə bitkilərində regenerasiya prosesi<br>5. Bitkinin yeraltı sisteminin böyüməsi və inkişafı<br>6. Meyvənin inkişafı və yetişməsi fenofazası<br>***Ədəbiyyat və mənbə:*** [2, 3, 6] | 2 | |
| 7 | **Mövzu-7:** Meyvə-giləmeyvə bitkilərinin böyümə və inkişafında xarici şəraitin rolu<br>Plan:<br>1. Meyvə-giləmeyvə bitkilərinin inkişafına iqlim amillərinin təsiri<br>2. Meyvə-giləmeyvə bitkilərinin böyüməsinə edafit amillərinin təsiri<br>3. Oroqrafik amillərin meyvə bitkilərinin inkişafına təsiri<br>4. Meyvə bitkilərinin inkişafına biotik və antropik amillərin təsiri<br>***Ədəbiyyat və mənbə:*** [1, 3, 5, 8] | 2 | |
| 8 | **Mövzu-8:** Meyvə bitkilərinin dövri qocalması, cavanlaşması, hər il və ilaşırı məhsul verməsi<br>Plan:<br>1. Bitkilərdə ümumi və xüsusi yaş dövrləri<br>2. Meyvə bitkilərində yaş dövrləri<br>3. Meyvə bitkilərində məhsula düşməyə təsir edən amillər<br>4. Meyvə bitkilərinin hər il məhsul verməsi<br>5. Meyvə bitkilərinin ilaşırı məhsul verməsi<br>**Ədəbiyyat və mənbə:** [1,3, 7, 8] | 1 | |
| | **Cəmi:** | **15 s.** | |

| № | Laboratoriya işləri-Meyvəçilik-1 | Saat |
|---|---|---|
| 1 | Meyvəçilik fənninin predmeti, vəzifələri, bölmələri və xalq təsərrüfatında əhəmiyyəti. | 2 |
| 2 | Meyvəçiliyin dünyada və Azərbaycanda inkişaf tarixi. Meyvəçilikdə intensivləşmənin yolları | 2 |
| 3 | Meyvə bitkilərinin təbii böyümə xarakterinə görə qruplaşdırılması, meyvə-giləmeyvə bitkilərinin orqanları, kök sisteminin morfoloji və bioloji xüsusiyyətləri | 2 |
| 4 | Çoxaldılma üsullarından asılı olaraq kök sisteminin xüsusiyyətləri, köklərin torpaqda yerləşməsi istiqaməti, sorucu köklərin anatomik quruluşu | 2 |
| 5 | Meyvə-giləmeyvə bitkilərinin yerüstü hissələri, meyvə bitkilərində zoğ və zoğun tipləri, meyvə bitkilərində göz və budaqların tipləri | 2 |

| | | |
|---|---|---|
| 6 | Gövdənin anatomik quruluşu, meyvə budaqlarının quruluşu, umlu meyvə bitkilərində meyvə budaqcıqlarının tipləri, çəyirdəkli meyvə bitkilərində meyvə budaqcıqlarının tipləri | 2 |
| 7 | Meyvə-giləmeyvə bitkilərində yarpaq və onun formaları, meyvə bitkilərində vegetativ tumurcuqlar, generativ tumurcuğun bitki üzərində yerləşməsi | 2 |
| 8 | Çiçəyin quruluşu, şiçək topasının tipləri, meyvə və onun formaları, toxum və onun quruluşu | 1 |
| | **Cəmi:** | **15 s.** |

**X. Fənn üzrə tələblər, tapşırıqlar:**

"Meyvəçilik-1" fənnini mənimsəməklə, meyvəçiliyin əhəmiyyəti, tarixi, inkişafı və meyvəçilik sistemlərinin zonal xüsusiyyəti, dünya ölkələrində intensiv meyvəçilik sistemləri, habelə müasir və intensiv bağçılıq sistemləri üzrə nəzəri və praktik əsasları müəyyənləşdirmək asanlaşır.

**XIII.Fənn üzrə təlim nəticələri.**

1. "Meyvəçilik-1" fənnini mənimsəməklə, meyvəçiliyin əhəmiyyəti, tarixi, inkişafı və meyvəçilik sistemlərinin zonal xüsusiyyəti, dünya ölkələrində intensiv meyvəçilik sistemləri, habelə müasir və intensiv bağçılıq sistemləri üzrə nəzəri və praktik əsasları müəyyənləşdirmək asanlaşır.

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

**XIV. Kollekvium sualları**

**Birinci kollekvumun sualları**

1. Meyvəçilik fənninin predmeti və vəzifələri.
2. Meyvəçilik fənninin bölmələri.
3. Meyvəçiliyin xalq təsərrüfatında əhəmiyyəti.
4. Meyvəçilikdə intensivləşmənin yolları
5. Meyvə bitkilərinin təbii böyümə xarakterinə görə qruplaşdırılması
6. Meyvə-giləmeyvə bitkilərinin orqanları
7. Kök sisteminin morfoloji və bioloji xüsusiyyətləri
8. Çoxaldılma üsullarından asılı olaraq kök sisteminin xüsusiyyətləri
9. Köklərin torpaqda yerləşməsi istiqaməti
10. Sorucu köklərin anatomik quruluşu

**İkinci kollekviumun sualları**

1 Meyvə-giləmeyvə bitkilərinin yerüstü hissələri
2 Meyvə bitkilərində göz, zoğ və budaqların tipləri
3 Gövdənin anatomik quruluşu
4 Meyvə budaqcıqlarının quruluşu
5 Meyvə-giləmeyvə bitkilərində yarpaq və onun formaları
6 Meyvə bitkilərində vegetativ və generativ tumurcuqlar, onların bitki üzərində yerləşməsi
7 Çiçəyin quruluşu və çiçək topasının tipləri
8 Meyvə və onun formaları, toxum və onun quruluşu
9 Meyvə bitkilərində filogenetik və ontogenetik inkişaf
10 Meyvə bitkilərində böyümə ilə inkişafın əlaqəsi

**XI. İmtahan sualları:**

**I blok**

1. Meyvəçilik fənninin predmeti və vəzifələri.
2. Meyvəçilik fənninin bölmələri.
3. Meyvəçiliyin xalq təsərrüfatında əhəmiyyəti.
4. Meyvəçilikdə intensivləşmənin yolları

5. Meyvə bitkilərinin təbii böyümə xarakterinə görə qruplaşdırılması
6. Meyvə-giləmeyvə bitkilərinin orqanları
7. Kök sisteminin morfoloji və bioloji xüsusiyyətləri

**II blok**

8. Çoxaldılma üsullarından asılı olaraq kök sisteminin xüsusiyyətləri
9. Köklərin torpaqda yerləşməsi istiqaməti
10. Sorucu köklərin anatomik quruluşu
11. Meyvə-giləmeyvə bitkilərinin yerüstü hissələri
12. Meyvə bitkilərində zoğ və zoğun tipləri
13. Meyvə bitkilərində göz və budaqların tipləri
14. Gövdənin anatomik quruluşu

**III blok**

15. Meyvə budaqcıqlarının quruluşu
16. Tumlu və çəyirdəkli meyvə bitkilərində meyvə budaqcıqlarının tipləri
17. Meyvə-giləmeyvə bitkilərində yarpaq və onun formaları
18. Meyvə bitkilərində vegetativ və generativ tumurcuqlar, onların bitki üzərində yerləşməsi
19. Çiçəyin quruluşu
20. Çiçək topasının tipləri
21. Meyvə və onun formaları
22. Toxum və onun quruluşu

**IV blok**

23. Meyvə bitkilərində filogenetik və ontogenetik inkişaf
24. Meyvə bitkilərində böyümə ilə inkişafın əlaqəsi
25. Yerüstü sistemin böyüməsi və inkişafı
26. Meyvə bitkilərində regenerasiya prosesi
27. Bitkinin yeraltı sisteminin böyüməsi və inkişafı
28. Meyvənin inkişafı və yetişməsi fenofazası
29. Meyvə-giləmeyvə bitkilərinin inkişafına iqlim amillərinin təsiri
30. Meyvə-giləmeyvə bitkilərinin böyüməsinə edafit amillərinin təsiri

**V blok**

31. Oroqrafik amillərin meyvə bitkilərinin inkişafına təsiri
32. Meyvə bitkilərinin inkişafına biotik və antropik amillərin təsiri
33. Bitkilərdə ümumi və xüsusi yaş dövrləri
34. Meyvə bitkilərində yaş dövrləri
35. Meyvə bitkilərində məhsula düşməyə təsir edən amillər
36. Meyvə bitkilərinin hər il məhsul verməsi
37. Meyvə bitkilərinin ilaşırı məhsul verməsi.

“Meyvəçilik-1” fənninin sillabusu **060708** – “Meyvəçilik” ixtisasının tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir.
“Aqrar elmlər” kafedrasının 12.02.2025-ci il tarixli 06 saylı iclas protokolunun qərarı ilə təsdiq olunmuşdur.

**Fənn müəllimi:** **dos.B.X.Şahbazov**

**Kafedra müdiri:** **dos.İ.C.Kərimov**